# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 374** **Bakı şəhəri, 3 oktyabr 2020-ci il**

***Azərbaycan Milli Elmlər Akademiyasının bəzi məsələləri haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Milli Elmlər Akademiyasının təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə İnstitutu “Fəlsəfə və Sosiologiya İnstitutu” adlandırılsın.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 17 noyabr tarixli 363 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 11, maddə 1426; 2016, № 7, maddələr 1356, 1359; 2017, № 1, maddə 127) ilə təsdiq edilmiş “Azərbaycan Milli Elmlər Akademiyasının Strukturu”nda 2.29-cu bənd aşağıdakı redaksiyada verilsin:

“2.29. Fəlsəfə və Sosiologiya İnstitutu;”.

**3.** Azərbaycan Milli Elmlər Akademiyası bu Qərardan irəli gələn məsələləri həll etsin.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş Naziri***

Xalq qəzeti 2020.- 7 oktyabr.- S.6.